# GÖRKƏMLİ İCTİMAİ XADİM ƏZİZ ƏLİYEV İRSİ VƏ RƏQƏMSAL KİTABXANA MENECMENTİ: AMEA-NIN ROLU VƏ GƏLƏCƏK PERSPEKTİVLƏRİ

***Aysun Telman qızı Cəbrayılova***

*BDU İnformasiya və sənəd menecmenti fakültəsi,*
*magistrant*
*aysun.cebrayilova@icloud.com*

***Açar sözlər:*** *Əziz Əliyev, ictimai xadim, elmi irs, rəqəmsal kitabxana, rəqəmsallaşdırma, kitabxana menecmenti, informasiya resursları, AMEA, rəqəmsal miras, biliyin qorunması və ötürülməsi*

***Ключевые слова:*** *Азиз Алиев, общественный деятель, научное наследие, электронная библиотека, оцифровка, библиотечное управление, информационные ресурсы, НАНА, цифровое наследие, сохранение и передача знаний*

***Keywords:*** *Aziz Aliyev, public figure, scientific heritage, digital library, digitization, library management, information resources, ANAS, digital heritage, preservation and transfer of knowledge*

**Xülasə:** Bu məqalədə görkəmli ictimai xadim, pedaqoq Əziz Əliyevin elmi və ictimai irsi müasir rəqəmsal kitabxana menecmenti kontekstində təhlil olunur. Əziz Əliyevin Azərbaycanın səhiyyə, təhsil və idarəetmə sahələrində göstərdiyi xidmətlər onun zəngin irsini təşkil edir və bu irsin gələcək nəsillərə çatdırılması üçün rəqəmsallaşdırma zərurəti önə çəkilir. Məqalədə rəqəmsal kitabxana menecmentinin prinsipləri, texnologiyaları və informasiya resurslarının idarə olunması yolları araşdırılır. Eyni zamanda, Əziz Əliyevə dair arxiv materiallarının, nadir foto və sənədlərin rəqəmsallaşdırılması və açıq elmi mühitdə əlçatanlığının təmin olunması istiqamətində təkliflər irəli sürülür. Məqalədə, həmçinin, bu istiqamətdə həyata keçirilə biləcək layihələr, rəqəmsal arxivlər və tematik virtual sərgilər üzrə tövsiyyələr irəli sürülür. Nəticə etibarilə, Əziz Əliyev irsinin rəqəmsallaşdırılması və effektiv şəkildə idarə olunması milli elmi irsin gələcək nəsillərə çatdırılmasında strateji əhəmiyyət daşıyır və rəqəmsal kitabxana menecmnetinin inkişafında örnək təşəbbüs ola bilər.

**Резюме:** В данной статье анализируется научное и общественное наследие видного общественного деятеля и педагога Азиза Алиева в контексте современного управления цифровыми библиотеками. Его значительный вклад в развитие здравоохранения, образования и управления в Азербайджане составляет основу его богатого наследия, подчёркивая необходимость его цифровизации для передачи будущим поколениям. В статье рассматриваются принципы и технологии цифрового библиотечного менеджмента, а также способы управления информационными ресурсами. Также предлагаются инициативы по цифровизации архивных материалов, редких фотографий и документов, связанных с Азизом Алиевым, с обеспечением их доступности в открытой научной среде. Кроме того, выдвигаются рекомендации по реализации тематических виртуальных выставок, цифровых архивов и других проектов. В конечном итоге цифровизация и эффективное управление наследием Азиз Алиева имеют стратегическое значение для передачи национального научного достояния следующим поколениям и могут стать примером для развития цифровых библиотек.

**Summary:** This article analyzes the scientific and public legacy of the prominent public figure and educator Aziz Aliyev in the context of modern digital library management. His valuable contributions to Azerbaijan's healthcare, education, and governance form the foundation of his rich legacy, emphasizing the necessity of digitization for its preservation and transmission to future generations. The article explores principles and technologies of digital library management and methods of managing information resources. It also puts forward proposals for the digitization and open scientific

access to archival materials, rare photographs, and documents related to Aziz Aliyev. Additionally, recommendations are made regarding potential projects, digital archives, and thematic virtual exhibitions. Ultimately, the digitization and effective management of Aziz Aliyev's heritage hold strategic importance for conveying national scientific legacy to future generations and can serve as a model initiative in the development of digital library management.

XX əsr Azərbaycan tarixində öz elmi və ictimai fəaliyyəti ilə ön plana çıxmış şəxsiyyətlərdən biri də Əziz Əliyevdir. Onun fəaliyyəti təkcə səhiyyə səhiyyə sahəsində deyil, həm də təhsil, idarəçilik, millətlərarası münasibətlər və maarifçilik sahələrində özünü göstərmişdir. Görkəmli dövlət xadimi Əziz Əliyev bütün həyatını sevdiyi peşəyə həsr etmiş, təhsil, səhiyyə təşkilatçısı kimi misilsiz işlərə imza atmışdır [1, s.18]. Əziz Əliyev Azərbaycanda milli dildə tibb təhsilinin əsasını qoyanlardan biri olmuş və bu yolda heç vaxt qüvvə və bacarığını əsirgəməmişdir [2, s.8]. Əziz Əliyev multikultural dəyərlərin qorunması və vətəndaş həmrəyliyinin təmin olunmasında böyük xidmətlər göstərmiş, milli kimliyin və elmi biliklərin inkişafına töhfə vermişdir. Müasir dövrün əsas çağırışlarından biri isə belə tarixi və elmi irsin rəqəmsal formada qorunması və gələcək nəsillərə çatdırılmasıdır. Bu baxımdan, rəqəmsal kitabxana menecmenti müasir informasiya cəmiyyəti üçün vacib sahəyə çevrilmişdir.

Bu gün dünya yalnız yeni əmək alətlərinin yaradılması, istehsal proseslərində buxar və ya elektrik enerjisinin istifadəsi kimi hadisələrlə müqayisə edilə biləcək əsl informasiya inqilabını yaşayır. İnformasiya, proqram-texniki vasitələrin köməyi ilə onun əvvəl görünməyən həcmlərdə yaradılması və tətbiqi real dünyanın oxşarı kimi və hazırda insanların həyatında nəticələri çətinliklə qiymətləndirilə biləcək yeni "virtual" məkanın yaradılması və modelləşdirilməsinə imkan verib. [3, s.24] Rəqəmsal kitabxanalar yalnız məlumat toplamaq deyil, həm də onları sistemləşdirilmiş şəkildə təqdim etmək, elmi və ictimai mühitdə əlçatan etmək funksiyalarını daşıyır. Bu məqalədə Əziz Əliyevin elmi və ictimai irsinin rəqəmsallaşdırılması zərurəti və bu istiqamətdə rəqəmsal kitabxana menecmentinin rolu geniş şəkildə təhlil edilir.

***"Boş bir arxiv, yoxsa zəngin bir rəqəmsal xəzinə!?"***

Əziz Əliyev kimi şəxsiyyətlərin irsi – sadəcə keçmişin qürur səhifəsi deyil, bu günümüz və gələcəyimiz üçün bilik, ilham və məsuliyyət mənbəyidir. Lakin yalnız bu irsi qorumaq kifayət deyil, bu irsi yaşatmaq, gələcək nəsillərə ötürmək lazımdır. Rəqəmsal kitabxana menecmenti bu missiyanın ən çağdaş və effektiv yollarından biridir.

Rəqəmsal kitabxana menecmenti - informasiya resurslarının toplanması, sistemləşdirilməsi saxlanması və istifadəçilərə təqdim oluması üçün müasir texnologiyalara əsaslanan idarəetmə sahəsidir. Rəqəmsal kitabxana menecmenti sadəcə kitabların skan olunması deyil, bu, informasiya xəzinəsinin sistemli şəkildə toplanması, təsnif olunması, araşdırma və təhlil üçün əlverişli şəraitin yaradılması deməkdir. Və ən əsası mədəni və elmi irsimizi zamanın ötəsinə daşımaq deməkdir. Rəqəmsal kitabxanalar və məlumat bazaları vasitəsilə, Əziz Əliyev irsinin rəqəmsal platforması yaradılaraq, bütün elmi və mədəniyyət resursları bir yerdə toplanaraq asanlıqla istifadəyə verilir. Bu yalnız yerli istifadəçilər üçün deyil, həm də dünya miqyasında elm adamları və araşdırmaçıların istifadəsinə açıq olur.

Əziz Əliyev irsi kontekstində rəqəmsal kitabxana menecmentinin əsas prinsiplərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- **Məlumatın əlçatanlığı** ( Məsələn, "elibrary.az" və ya digər bazalar üzərindən onun irsinə dair materialların yayımlanması bu prinsipi reallaşdırır)
- **Məlumatın saxlanması və qorunması**
- **Axtarış imkanları** ( Əziz Əliyev haqqında rəqəmsal arxiv yaradılarsa, istifadəçilər axtarış bölməsində "Dağıstan fəaliyyəti", "Tibb islahatları", "1940-cı illər" kimi açar sözlər ilə materialları tapmaq imkanına sahib olacaqdır)

• **İnteroperabellik-sistemlərarası uyğunluq** ( Əziz Əliyev irsinə dair məlumatlar beynəlxalq standartlara uyğun indeksləşdirilərsə, bu materiallar beynəlxalq sistemlərə inteqrasiya oluna bilər. Bu da onun irsinin dünya miqyasında tanıdılmasına şərait yaradar)

• **Davamlılıq və yenilənmə** ( Əziz Əliyev irsinə dair rəqəmsal baza bir dəfə yaradılıb olduğu kimi saxlanmamalıdır. Vaxtaşırı yeni tədqiqatlar, xatirələr, konfrans materialları, video-intervyular əlavə olunmalı, platforma dinamik şəkildə yenilənməlidir)

Bu prinsiplər klassik kitabxanaçılıq ənənələrini müasir texnologiyalarla birləşdirərək, informasiya resurslarının səmərəli idarə olunmasını təmin edir.

Azərbaycan Milli Elmlər Akademiyası bu prosesin elmi-texniki əsaslarının formalaşdırılmasında mühüm rol oynayır. AMEA ölkənin elmi və intellektual resurslarının qorunması, sistemləşdirilməsi və gələcək nəsillərə ötürülməsi sahəsində əsas təşkilatdır. AMEA-nın Elmi Kitabxanası və müvafiq institutları Əziz Əliyev irsinin toplanması, rəqəmsallaşdırılması və geniş ictimaiyyətə təqdim edilməsi üçün zəruri infrastruktur və intellektual baza ilə təmin olunmuşdur. AMEA-nın rəqəmsallaşdırma siyasətinə uyğun olaraq, aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

· Əziz Əliyev irsinin toplanması üzrə xüsusi layihəyə başlanması;
· Əziz Əliyevə həsr olunmuş rəqəmsal arxiv bazasının yaradılması;
· Multidissiplinar tədqiqat layihələrinin dəstəklənməsi;
· Tematik virtual sərgilər və interaktiv platformaların təşkili;
· Professorun irsi əsasında hazırlanmış multimedia materiallarının ictimaiyyətə təqdim olunması;
· Açıq giriş (open access) əsaslı verilənlər bazasının qurulması;
· Beynəlxalq akademik şəbəkələrə inteqrasiya.

Elm xadiminin tibb və digər sahələrdəki elmi təcrübəsi, AMEA-nın gələcək elmi fəaliyyətlərinə işıq tutacaq və onun irsi, gələcək nəsillər üçün təməl bir mənbəyə çevriləcəkdir.

Nəticə olaraq, Əziz Əliyevin zəngin elmi və ictimai irsi yalnız fiziki arxivlərdə deyil, həm də rəqəmsal platformalarda yaşamalı, bu irs "boş arxiv" yox, " zəngin rəqəmsal xəzinə" kimi qorunmalıdır. Müasir texnologiya bizə böyük fürsətlər verir: biz artıq yaddaşımızı kağızda deyil, rəqəmsal məkanda yaşada və paylaşa bilərik. Elə buna görə də, Əziz Əliyev kimi şəxsiyyətlərin həyat və fəaliyyətini rəqəmsal kitabxana vasitəsilə cəmiyyətə çatdırmaq, onların izlərini virtual dünyada yaşatmaq həm mənəvi borcumuz, həm də strateji zərurətdir.

**Ədəbiyyat**

1. *Əmiraslanov, Ə.* Şəxsiyyət meyarı //Azərbaycan.- 2024.- 30 dekabr.- №290.- S.18.
2. Əziz Əliyev-120.- Bakı: Təbib, 2017.- 580 s.
3. *Ramazanov, M. K.*. "İnformasiya sistemləri menecmenti" :dərslik.- Bakı, 2017.- 187 s.